**Azərbaycan.** - 2024.- 26 sentyabr. - № 210. - S. 11.

# İqlim dəyişikliyi ilə mübarizə böyük savaşdır

## COP29 bu döyüşdə qalib gəlməyə qərarlıdır

**Züleyxa Əliyeva**

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) noyabrda Bakıda keçirilməsi ölkəmiz qarşısında bir sıra öhdəliklər qoyub.**

Ona görə də Azərbaycan həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələri bir araya gətirməyi, ümumi öhdəlik və mənəvi vəzifə qismində iqlim çağırışlarını həll etmək məqsədilə əməkdaşlıq ruhunu təşviq etməyi hədəfə alıb.

COP29-un Azərbaycanda keçirilməsi iqlim dəyişikliyi ilə mübarizədə ölkəmizin iradə və qabiliyyəti ilə yanaşı, liderlik rolunu nümayiş etdirir. Bu konfrans dünyada gərginliyin azaldılmasına, sülhün bərqərar olunmasına da təsir göstərəcək. Sülhün əldə olunması həmçinin iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılmasına töhfə olacaq.

İqlim dəyişmələrinə qarşı mübarizədə ekoloq və meteoroloqlar öndə getsələr də, bu gün daha çox dünya güclərinin birləşməsinə ehtiyac var. Bəşəriyyəti bu bəladan qurtarmaq onların əlindədir, əks halda iqlim dəyişmələri bitməyəcək və daha ağrılı bəlaya çevriləcək. Bu, COP29-un çağırışıdır və kökündə beynəlxalq sülhə dəstək vermək dayanır.

Qeyd edək ki, COP29 sədrliyi və Beynəlxalq Miqrasiya Təşkilatının birgə təşkilatçılığı ilə BMT-nin baş qərargahında "İqlim, sülh və miqrasiya" mövzusunda sentyabrın 23-də keçirilən yüksəksəviyyəli "dəyirmi masa"da noyabrın 15-i COP29 çərçivəsində "Sülh, yardım və bərpa günü" kimi müəyyənləşib. Bu məqsədlə bir sıra yüksəksəviyyəli tədbir keçirilməsi nəzərdə tutulub ki, onlardan biri də adıçəkilən tədbirdir. "Dəyirmi masa"da bildirilib ki, COP29 çərçivəsində Bakı İqlim və Sülh Mərkəzinin təsis edilməsi və fəaliyyətə başlaması gözlənilir. Mərkəzin yaradılmasında Azərbaycanla birlikdə təşəbbüskar ölkələr, eyni zamanda BMT agentlikləri, beynəlxalq inkişaf qurumları və bankları iştirak edəcəklər.

BMT Baş Assambleyası çərçivəsində keçirilən bu tədbir həm də COP29 sülh gününə hazırlıq məqsədi daşıyırdı. COP29-un "Sülh, yardım və bərpa günü"nün gündəliyində 3 əsas və 1 bağlantı mövzu olacaq. Bunlar su qıtlığı, qida təhlükəsizliyi və torpaq deqradasiyası mövzuları, onların törətdiyi fəsadlar nəticəsində iqlimlə bağlı miqrasiya məsələsidir. Sülh günündə bu məsələlərlə əlaqədar strategiya, siyasət və praktiki addımların atılması nəzərdə tutulur. Belə addımlardan biri də COP29-un Rəyasət Heyətinin bütün tərəfləri siyasi çağırışları aşmağa, birlikdə olmağa və tədbirin keçiriləcəyi ay ərzində atəşkəsə sadiq olmağa çağırışdır. Artıq dünyanın hər yerindən partiyalar və maraqlı tərəflər öz dəstəklərini bildirərək müraciəti təsdiq ediblər.

İqlim dəyişmələri ilə mübarizə bir savaş və gərgin döyüşdür. Bu savaşda sülhə nail olmaq planetin sabahını təhlükələrdən, faciə və fəlakətlərdən xilas etmək deməkdir. İqlim savaşı dünya ölkələrinin gündəliyində olan ən vacib məsələdir və ondan qaçmaq mümkün deyil. Bu və digər məsələlər ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayevin imzaladığı müraciətdə yer alıb: "COP29 Qafqazda ilk dəfə keçiriləcək və biz regionumuzu dünyada təmsil etməkdən şərəf duyuruq. İqlim dəyişikliyi hər kəsə fərqli təsir göstərir. Xəzər dənizində həyatımıza və dolanışıq vasitələrimizə birbaşa təsir edən həddindən artıq isti, su qıtlığı və suyun səviyyəsinin azalması ilə üzləşirik. Lakin biz həm də bərpaolunan enerji landşaftında mühüm rol oynaya bilən, aşağı emissiyalara keçidi və iqlimə davamlı inkişafı dəstəkləyən zəngin külək və günəş potensialımız kimi həllər və imkanlar mənbəyiyik. Regional və qlobal səviyyədə biz nümunə göstərməkdə qərarlıyıq".

Xarici işlər naziri Ceyhun Bayramov da BMT Baş Assambleyasının 79-cu sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində BMT-nin baş qərargahında təşkil olunan "Gələcəyin Sammiti"ndə çıxış edərkən bildirib ki, iqlim dəyişmələri, dağıdıcı münaqişələr, geosiyasi gərginliklər və artan bərabərsizlik kimi presedentsiz çağırışlarla qarşı-qarşıya qalan dünya həlledici yolayrıcındadır. Bu kritik dönəmdə gələcəyin sammiti aktual çağırışların həll olunması, uçurumların aradan qaldırılması və çoxtərəfli sistemin bir vahid şəklində irəlilədiyini nümayiş etdirmək üçün bir fürsətdir. Nazir çıxışında vurğulayıb: "Münaqişələr və iqlim böhranı kimi məsələlərin kəsişdiyini nəzərə alaraq, bir neçə gün əvvəl bəyan edilən barışıq çağırışında əksini tapmış COP29 naminə flaqman barışıq təşəbbüsünü təqdim edib. Biz COP29 ayı ərzində birliyə və barışığa hörmət etməyə çağırırıq. Bir daha iqlim davamlılığı və dayanıqlı inkişafın, sülh və təhlükəsizliyin, sadəcə, arzu, istək deyil, hamı üçün reallıq olduğu daha yaxşı gələcəyə

sadiqliyimizi təsdiq etməliyik. Biz yalnız cəsarətli, inklüziv və əməkdaşlıq fəaliyyəti vasitəsilə buna nail ola bilərik".